Ədalət.- 2022.- 26 fevral. S. 6.



**Zemfira Məhərrəmli**
**yazıçı-publisist**

# "Xocalı şikəstəsi" haqsızlıqla mübarizəyə çağırır

**Xocalı mahalı. Qarabağın bu dilbər guşəsi yamyaşıl gözəlliklər məskəniydi. Şəhli yaz otlarından libas geymiş Kətik meşəsini, Gendərəni yazbaşı al qırmızı lalələr bəzəyirdi.**

Bir soyuq fevral gecəsində Xocalının səmasını qara buludlar aldı. Gecələrin sirdaşı Ay da görünməz olub yatağına çəkildi. Ardı-arası kəsilməyən mərmilərin insan bağrını yaran gurultusu, şaqqıltısı qəfil sükutu pozdu. Torpağın köksünə barıt qoxulu qurşunlar səpələndi. İnsan qanına susamış yırtıcı qaraquşlar, xarabalıq sevən bayquşlar iti caynaqlarını bu yurd yerimizin körpələrinə, el gözəllərinə, ipək kimi kövrək qocalarına, dinc, isti günlərinə uzatdılar. Xocalının başı üstünü sar aldı. Günahsız insanlar qəfil fəlakətə düçar oldular.

O məşum, sazaqlı-şaxtalı gecədə yergöy qan ağladı. Kətik meşəsi bu qətliama yas tutdu, doğmalarını, ata-anasını, balalarını itirənlərin, arzu-kamı şişə, röyaları ərşə çəkilənlərin acı göz yaşları Qarqar və Xocalı çaylarının sularına qarışdı.

Aradan 30 il keçməsinə baxmayaraq, xalqımızın qan yaddaşına yazılmış Xocalı faciəsi qanayan, köz tutmayan yaramızdır. O dəhşətli gecədə baş vermiş soyqırımının müsibətləri barədə çox danışılıb, çox yazılıb. Poeziya, nəsr, publisistika və dramaturgiyamızda bu ağrılı mövzu ilə bağlı dəyərli nümunələr, örnəklər yaradılıb. Həmin bədii nümunələr sırasında diqqəti çəkən bir əsər də var: Ulduz Qasımın qələmə aldığı "Xocalı şikəstəsi" romanı.

Ulduz Qasım Cəbrayıl rayonunun Mehdili kəndində anadan olub. Doğma kəndində orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Jurnalistika fakültəsində təhsil alıb. İlk gənclik çağlarından respublika mətbuatında hekayələri, esseləri, şeirləri, publisistik yazıları dərc edilib. "Mən aşiqəm Qarabağa", "Tələbə gündəliyi", "Qürbət zöhrəsi", "Açılmayan sirrlər", "Solmayan Nərgiz" kitablarının müəllifidir. "Qürbət Zöhrəsi" və "Xocalı şikəstəsi" romanları İstanbulda Türkiyə türkcəsində işıq üzü görüb.

Ailə vəziyyəti ilə əlaqədar olaraq Moskvaya köçən, bu şimal şəhərində yaşayıb yaradan soydaşımız, illərini ədəbiyyata, publisistikaya həsr etmiş istedadlı el qızımız harada olursa-olsun, doğma Vətənini heç vaxt unutmayıb. Necə deyərlər, yurdun xoş gününə sevinib, çətin gününə kədərlənib. Xalqının, millətinin uzun müddət qəlbində daşıdığı Qarabağ ağrısını öz acısı bilib, odur ki, əsərlərində bir hüzn, ələm, həm də qürbətdə yaşamağın nisgili var. Ermənistan silahlı qüvvələrinin və qoluzorlu havadarlarının birgə rəvac verdiyi Xocalı qətliamından bizi uzun zaman ayırsa da, bu yurd yerimizin itkisini, bütöv bir şəhərin yerlə-yeksan edilməsini, soydaşlarımızın kütləvi şəkildə qırılmasını yaddan çıxarmadıq.

"Xocalı şikəstəsi" romanı Ulduz Qasımın Qarabağ mövzusunda ərsəyə gətirdiyi digər bədii nümunələr sırasında özünəməxsus yer tutur. Adı çəkilən əsər baş vermiş qanlı faciəni və hadisələrin sonrakı inkişafını bir ailənin timsalında, bədii obrazlar vasitəsilə dolğun əks etdirir. O müdhiş gecədə yaşanmış dəhşətlər əsərin baş qəhrəmanları Fərhad həkimin və Məryəm müəllimənin ailəsindən də yan keçməyib. Qaçhaqaç düşəndə bu ailənin kiçik övladı Fuad meşədə düşmən gülləsinə tuş gəlir. Qızları Pərini qorumağa çalışan ata və ana oğullarının cəsədini heç vəchlə apara bilmirlər.




Erməni quldurların öz millətindən olan gənc qadını məhz azərbaycanlılarla dostluq etdiyinə görə öldürməsinin şahidi olan Fərhad və Məryəm onun kol dibində düşüb qalmış körpəsini götürərək yola davam edərkən qarşılarına çıxan, doğuş ağrılarından əziyyət çəkən Zərifəyə və onun dörd övladına da kömək əli uzadırlar.

Fərhad həkim çağanın dünyaya gəlməsinə bir həkimtək yardım göstərir, Məryəm isə qucağındakı erməni körpəsini, azyaşlı qızı Pərini və Zərifənin dörd övladını himayə edərək beş-altı gün nahamar meşənin qarlı cığırları ilə nicat yolu axtarır. Ağdama gəlib çıxanadək Məryəm ana şaxtalı günlərdə sətəlcəm olmuş uşağı, o cümlədən qızı Pərini itirir. Dünyaya oğlan övladı gətirən Zərifə erməni quldurların gülləsindən həlak olur, Fərhad isə ayağından yaralanır. Sonradan iki ayağı kəsilmiş ömür-gün yoldaşı Fərhad həkimi və balalarını da itirən Məryəm ana Zərifənin anasız-atasız qalmış övladlarına, sözün əsl mənasında, Ana olur, onları böyüdür, oxudur.

Müəllif yanımcıllığın, insana qayğının qəlb yaralarına məlhəm olduğuna inanır: "Yaxşı ki, bu sevgilər,mırhəmət və şəfqətlər var. Ürəkdəki kinləri əridir. Belə olmasaydı, insanlar daim bir-birləriylə çəkişərdilər... Yer üzü qara rəngə boyanardı."

Romanda bitkin obrazlar qalereyası, müharibə dövrü insanlarının (Fərhad, Məryəm, Şəfiqə, Fərman, Səməndər kişi, Gövhər bacı, Həmid dayı, Samir və s.) qürur doğuran məziyyətləri ilə qarşılaşırıq. Əsərin qəhrəmanlarından olan Fərman qohumu Məryəm müəllimə barədə danışarkən belə deyir: "Asan iş deyil, bu qədər əzabları yaşamaq... Üstünə, həqiqətən də, ağır yük götürmüşdü. Beş yetimə sahiblənmək hər igidin işi deyildi. Qadın olasan, bu qədər geniş ürəkli, mərd və qoçaq olasan. Hər gün hər yerdə beləsiylə qarşılaşmaq olmur."

Türkiyəli yazıçı, naşir və tərcüməçi İmdad Avşarın fikrincə, bu əsər, "Həyatın bütün çətinliklərinə rəğmən ailəsi, yuvası və cocuqları üçün mücadilə edən... min bir əziyyətlə qarşılaşmasına baxmayaraq, həyata tutunan, mücadiləsində də başarılı olan Azərbaycan qadınını anlatdığına görə təsirli bir romandır. Qarabağ mövzusuna həsr edilmiş "Xocalı şikəstəsi" romanı Türkiyədə də böyük maraqla qarşılanıb. Çünki Qarabağ məsələsi Azərbaycanın olduğu qədər Türkiyənin də məsələsidir. Millətlər arasındakı mücadilələr sadəcə siyasi, iqtisadi mücadilələrdən ibarət deyildir. Ulduz Qasım "Xocalı şikəstəsi" ilə Azərbaycanın haqlı davasına böyük bir güc verib."

Yazıçı "Xocalı şikəstəsi" ilə Qarabağda erməni zülmünü, vəhşətini və qətliamını bir daha yada salıb. Azərbaycanlı ananın gerçək həyat hekayəsini anladan bu romanın filmə bənzər səhnələri hələ də gözümüz önündədir. Bu ananın cocuqlarını qurtarmaq üçün qarlardan, buzlardan keçməsini düşündükcə insanın tükü ürpəşir. Kitabın redaktoru, şair-publisist Vaqif Bəhmənli həmin əsərin təqdimat mərasimində belə bir fikir səsləndirib: "Ulduz xanım təbiətindəki qürur hissini, Vətənə, doğma dilə, valideynlərinə, adət-ənənələrimizə, İslam inancına bağlılığını qoruyub saxlayır. Elə bu səbəbdən də "Xocalı şikəstəsi" kimi roman ərsəyə gətirib".

"Xocalı şikəstəsi" yurd həsrətli insanların romanıdır (şair-publisist Ələmdar Quluzadə). Müəllifin bu əsəri vətənpərvərlik duyğusu ilə yoğrulub. Şəhəri dağım-dağım, ümidləri param-parça olan, əzizlərinin itkisini içində boğan insanların faciəsidir Xocalı soyqırımı. Əvvəlcədən düşünülərək, milli mənsubiyyətinə görə və kütləvi şəkildə törədilmiş bu qətliam, müəllifin fikrincə, insanlığa qarşı rəzalətdir. Nasirin fikrincə, məhz bu rəzalətə görə, "dünənə qədər şah imarətlərində yaşayan, cəllad ermənilərin ağlagəlməz fitnəsi ilə Azərbaycanın dörd bir yanına səpələnən, bir hissəsi də qaçqın yataqxanasından, bütün bu əzabları bircə adla anladan bu fəlakət məkanından ah-nalələr yüksəlir... Buradan dərd qoxusu gəlir, insanlar sarsıntının son həddindədir."

Bu, adi faciə deyil, insanlıq əleyhinə amansızlıqla törədilmiş cinayətdir. Kar, kor dünyanın ermənipərəst dairələri zaman-zaman Xocalı canilərinin cəzalandırılmasına hər vəchlə mane olmuşlar. Müəllifin millətçi ermənilərin törətdiyi vəhşiliklərə qəzəbi romandan gətirdiyimiz sonrakı fikirlərdə daha qabarıq görünür: "Axı, onlar bu qismətə layiq deyillər. Axı, onlar əkir, biçir, həyatdan şövq alırdılar. Xainlərin Vətən torpağına çalın-çarpaz dağ çəkməsinə kimlər rəvac verdi... Bu, hansı cəlladın oyunu idi? Niyə günahsız insanlar qanına qəltan oldu, niyə yurd-yuvaları viran edildi?"

Əsərdə cərəyan edən hadisələrdən bəlli olur ki, bu qanlı soyqırımı faciə qurbanlarının yaddaşında bütün təfərrüatı, ağrı-acısıyla qalsa da, onlar əzablara dözür, silah gücünə tərk etdikləri Xocalıya bir gün qayıdacaqlarına ümidlərini itirmirlər.

Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, tatiximizin dogru-düzgün təbliği üçün də bu əsərin əhəmiyyəti danılmazdır. Haqqında söz açdığım roman soyqırımı dəhşətlərini bədii-sənədli səpkidə əks etdirərək, Xocalı faciəsini dünyaya bəşəri cinayət kimi çatdıran dəyərli mənbədir. Real hadisələri canlandıran bu əsər "Xocalıya ədalət!" harayıtək səslənərək susqun dünyanı haqsızlıqla mübarizəyə çağırır.

**Bizə Qələbə sevincini yaşadan 44 günlük Vətən müharıbəsi işğal altında olan neçə yurd yerimizin, o cümlədən Ulduz Qasımın ata yurdu Cəbrayılın da düşməndən azad edilməsi ilə nəticələndi. Gün gələcək, Xocalıya da dönəcəyik!**